

■ İbrahim Yusifoğlu

## AYAN GEDİR MƏKTƏBƏ

Ayan gedir məktəbə
Bəh-bəh-bəh.
Çantası var bir şələ -
Bəh-bəh-bəh.
Baxın, süzür dörd yanı,
Tumarlayır Məstanı:

- Pişiyim, alaboyunsan,
İşi tamam oyunsan.
Çaşqın baxma gəl belə,
Ayan gedir məktəbə.

- Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz,
Səsini yayma elə,
Ayan gedir məktəbə.

- Cip-cip-cip cücələrim,
Ananızdan gen gəzməyin.
Güdür sizi Tülkü lələ,
Ayan gedir məktəbə.
- "Ala-bula boz keçi,
Ay qoşa buynuz keçi",
Gəl, arxamca az mələ,
Ayan gedir məktəbə.

- Ay Toplan, həddi aşma,
Məstan ilə dalaşma.
Asta hürü, gəl təbə,
Ayan gedir məktəbə.

- Ay babacan, ay nənə,
Güvənin sizlər mənə.
Gətirəcəm ləl-zəri,
Çanta dolu "beş"ləri.

Ayan gedir məktəbə -
Bəh-bəh-bəh,
Çantası var bir şələ -
Bəh-bəh-bəh!

## ÇAQQALA

Budaqlardan sallanan,
Çaqqaladı, çaqqala.
Bir cib yığdım yeməyə,
Babam dedi: - dur, bala!

Əgər yesən çaqqala,
Dodaqların büzülər.
Dişlərin bərk qamaşar,
Göz yaşların süzülər.

Günəşdən nur əməcək,
Morlananda çaqqala,
Yamanca xoş gələcək,
Uşağa, ağsaqqala.

## PÖHRƏLƏR

Yamancana sozalmışdı,
Xan çinarın pöhrələri.
Su içəntək açıldılar,
Pöhrələrin çöhrələri.

## YAĞIR YAĞIŞ

Narın-narın
Yağır yağır.
Gölməçəyə
Salır naxış.

## PAYIZDA ÜŞÜYƏN ÇİÇƏK

Soyuq dəyib sozalırsan,
Rəngin qaçıb bozarırsan,
Çox kövrək görkəm alırsan -
Payızda üşüyən çiçək.

Qırov düşür çətirinə,
Nəm qarışır ətirinə,
Şaxta dəyir xətirinə -
Payızda üşüyən çiçək.

Yaxasın ayaz sökübdü,
Köksünə duman çökübdü,
Sazaq səbrini tökübdü -
Payızda üşüyən çiçək.

Ətir saçdın bahar - yayda,
Uşaqları eyni qayda,
Ovsunladın çoxlu sayda -
Payızda üşüyən çiçək.



Səni torpaqdan üzəcəm,
Qorxma, dibçəyə əkəcəm,
Düz yazacan bəsləyəcəm -
Payızda üşüyən çiçək!

## ARABA

Yoldan çıxın:
- ba-ba-ba,
Yola çıxıb
a r a b a.
Sürəti
at surəti,
Sükanısa
cilovdu.
Cilovdan
bərk-bərk tutan
Od parçası
Bilovdu.
Bilov çəkir
yüyəni,
Boylanır
sağ-soluna.
Arabanı
döndərir.
Bir an bostan
yoluna.
Bu yolla
gedə bilməz
Nə "Mersedes",
nə də "CİP".
Ancaq bizim
a r a b a
Öz yolunu
düz seçib.
Neçə çuxur
gölməçə,
Qarşısına
çıxsa da,
Asanlıqla
Adlayır.
Bu yollardan
a r a b a.
Təkərlərin
Tak-tuku,
Səs salsa da
dörd yana.
Arabamız
yetişir
Göz oxşayan
bostana.
Siqnal verir:
- ba-ba-ba
- Ay uşaqlar,
tez dərin,
Qovun, qarpız,
ş a m a m a.
Qovunlar
əzilər ha...
Bircə-bircə
bələyin
Arabada
samana.
...Tutan kimi
yükünü,
Yola çıxır
a r a b a.
Siqnal verir:
- ba-ba-ba.
- Aparırıq
sovqatı,
Bağçada
u ş a q l a r a !

## MƏNİM BABAM ŞAİRDİR

Bilirsiniz, uşaqlar,
Mənim babam şairdir.
Yazdığı şeirləri
Uşaqlara dairdir.

## HİYLƏGƏR TÜLKÜ

Hinin həndəvərində,
Tülkü bic-bic ötürdü.
Alabaş hiyləgərin
Tozanağın götürdü.

## DEŞİLİBDİ LƏYƏNİ

Baxıb yağan yağışa,
Bilin, nənəm deyəni.
- Deşilibdi göylərin,
Su saxlayan l ə y ə n i !

## MAT QALMIŞAM NƏNƏMƏ

Nənəmin işlərinə
Mat qalmışam lap düzü.
Öz bildiyitək edir,
Tapşırılan hər işi.

Deyəndə ki, ay nənə,
Gəl şişirdək iri şar.
Gedib gətirir mənə
Sandığından iri nar.

Soruşuram, dovğaya,
Qataq nanə, yarpızı.
Tez gətirir sinidə
Dilimlənmiş qarpızı.

Qaça-qaça gəlirəm,
Plovunun iyinə.
Qoz, fındığı doldurur,
Köynəyimin cibinə.

Qaşqaralcaq bağcadan,
Səsləyirəm Təhməzi.
Eyvandakı taxçadan,
Tez gətirir b ə h m ə z i.

Babam gülür: Ay Ayan,
Gəl, incitmə nənəni.
O, bilərəkdən etmir,
Yaxşı eşitmir səni.

Görürsən ki, yaşlaşıb,
Yaşı çatıb səksənə.
Bircə ona alışıb,
Xidmət eyləsin sənə.